**Təranə MƏMMƏDOVA**
AMK-nın müəllimi
Ü.Hacıbəyli adına BMA-nın dissertantı
Elmi rəhbər: Turan Məmmədəliyeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Ü.Hacıbəyli ad. BMA-nın dosenti
E-mail: taranamammadova1428@mail.ru

# ETNOCAZ İSTİQAMƏTİNİN TƏŞƏKKÜLÜNDƏ MODAL-CAZ METODUNUN ROLU

***Xülasə:*** *Məqalədə müasir dövrdə beynəlxalq caz səhnəsində böyük nüfuz qazanmış bədii istiqamətlərdən biri olan etno-caz musiqisinin təşəkkül prosesinə nəzər salınır. Caz musiqisinin formalaşdığı əsas dövrlər üzrə icmal aparılaraq, etno-caz istiqamətinə gətirib çıxaran əsas amillər araşdırılır. Tarixi təşəkkül prosesində etno-caz istiqamətini formalaşdırmış əsas faktorlar – improvizasiyanın inkişafı, modallıq və modal caz, ritmə daha zəngin önəm verilməsi kimi cəhətlər üzərində xüsusi dayanılır. Tanınmış caz ifaçısı və nəzəriyyəçisi Corc Rasselin "Lidik konsepsiya" adlı nəzəriyyəsinə də toxunulur. Müəllif gəldiyi qənaətləri ümumiləşdirərək, dünya caz səhnəsindəki etno-caz istiqamətinin nailiyyətlərini Azərbaycan caz musiqisində baş verən oxşar təzahürlərlə, xüsusən Vaqif Mustafazadə və Rafiq Babayev kimi görkəmli caz ifaçılarının yaradıcılığı ilə müqayisəli qeydlər təqdim edir.*
***Açar sözlər:*** *etno-caz, modal-caz, modallıq, improvizasiya, Vaqif Mustafazadə, Rafiq Babayev*

Vətəni ABŞ-dan qaynaqlanıb, dünyanın bir sıra digər qitələrinə, Avropa, Asiya, Qafqaz və Afrika mədəniyyətlərinə nüfuz edən caz musiqisi Azərbaycana da XX əsrin 30-cu illərindən daxil olub formalaşmağa başlamış, az bir müddət ərzində öz təşəkkül və təkamül dövrünü yaşaya bilmişdir. Öz ənənəvi dövründən *bebop*[1], *cool*[2], *modern-jazz*[3], *avantgarde-jazz*[4] və *ethno-jazz*[5] dövrünədək tarixini keçmiş Azərbaycan cazı artıq 100 yaşına yaxınlaşır.

İlk əvvəl, *ethno-jazz* üslub istiqamətinin hansı amillər üzrə formalaşdığını və Azərbaycan caz sənətində necə yayılmasnı müşahidə etməzdən öncə, etno-caz musiqi təmayülünü tarixən hazırlamış əsas amillərin yığcam icmalından başlamağı məqsədəuyğun bilirik.

XX yüzilliyin ilk rübündən öz rəsmi təşəkkül dövrünə başlayan caz sənəti əsrin ən böyük, parlaq və qəribə təzahürlərindən biri kimi rəğbət qazanmışdır. Müxtəlif mərhələlər üzrə inkişaf edərək öz ənənəvi, klassik, orkestral dövründən kombo heyətinə qədər, modern-jazz, *jazz-rock*[6], *free-jazz*[7] və ən yeni üslub təmayüllərinədək inkişaf mərhələləri yaşamışdır. Caz üslublarının ümumi caz ifadə

sisteminə gətirdiyi ifadə yenilikləri baxımından caz üslublarının yığcam xarakteristikasını bu qaydada təqdim etmək istərdik.

Əgər caz musiqisinin klassik cərəyanları, xüsusən də orkestr ifasındakı caz üslubları – *big band*[8], *dixieland*[9], *swing*[10] – onun kollektiv ifa, yığcam struktur daxilində cüzi improvizə etmə, zəngin orkestr səslənişi kimi cəhətlərini qabardaraq inkişaf etdirirdi. Ənənəvi cazın orkestr dövrünün ümumi caz ifadə sisteminə gətirdiyi əsas nailiyyət – *swing* (suinq) idi. Suinq anlayışını həm məxsusi ritmik nəbz və poliritmik fakturaya malik musiqi, üslub və ümumi rakursdan hətta bir dövr kimi səciyyələndirmək olar. Suinq dövrü caz musiqisinin instrumental təbiətinin yaratdığı bir təzahür idi, çünki onunla bahəm *scat-vocal*[11] ifa üsulu da yaranmışdı.

Müntəzəm ritmik nəbz (onu *hi-hat* [12] sincləri ifa edir) üzərində qurulan, digər ritmik layda isə sinkopalı şəkillər və vurğular ifa edən ritm fonunda qırıq və xüsusi inkişaf xəttinə malik olmayan skət-vokal ayrıca hecaların, qırıq melodik ibarələrin, hər hansı məşhur mövzudan mənimsənilən hissəciklərin bir-birinə calanaraq məxsusi bir deyişmə prosesini xatırladır. Əslində, suinq – caz musiqisinin əsası, onun leksik, üslubi və zəmin yaradıcı anlayışlarından biridir. Suinq dövründə nəfəsli alətlər tərəfindən daha cəsarətli və dolğun sololar, improvizələr öz əksini tapır.

Modern (yəni müasir) caz – növbəti həlledici və geniş miqyaslı, çoxcəhətli caz formasiyasıdır ki, öz növbəsində bir neçə üslub istiqamətinə və texnikalara – bibop, kuul-caz və modal caza ayrılır.

Modal caz texnikası – üzərində xüsusi dayanacağımız bir dövrdür. Ənənəvi cazın ənənəvi funksional tonal və ənənəvi vers-korus quruluşu dövründən müasir dövrə, yeni lad, modal prinsipə doğru keçidi əmələ gətirən bir formasiyadır. Modal-caz üslub deyil, cazın bir texnika qolunu təşkil edən mühüm hissəsidir ki, sonradan müasir cazın bir çox nümayəndələri bundan bəhrələnmişlər.

Modal texnika caz musiqisinin harmonik ardıcıllıqlara əsaslanan improvizəyə əsaslanan üslublarından elə bir dövrə, mərhələyə keçid idi ki, burada lada, modusa, məqama əsaslanan improvizəyə üstünlük verilirdi və həmin prinsip öz sonrakı inkişafını tapırdı. Caz tarixində həmin sonrakı mərhələ fri-caz (*ing*. free-jazz) adlanır.

Modal caz texnikasında funksional harmoniya qanunauyğunluqlarına əsaslanan melodik və harmonik üsullardan imtina edir. Bu zaman kompozisiyanın əsərin səs materialı modal texnikadan istifadə edilməsi şərtilə "moduslar" əsasında qurulur. Modus – müəllifin özü tərəfindən seçiln ya qurulan səsdüzümləridir. Modal səsdüzümləri – 7 pilləli (heptatonik) məqam-səsdüzümləridir və bir-birindən öz daxilindəki müxtəlif yarımton intervalların əlaqələrinin müxtəlifliyi ilə fərqlənir. Modal səsdüzümlər həm qədim dövrlərdə mövcud olmuş (qədim yunan ladları), həm də hal-hazırda müxtəlif millətlərin (ispan, moldavan, alban, Balkan yarımadasının, İngiltərə və s.) milli-xalq rəqs və mahnı folklorunun əsasını təşkil edir.

XX əsrin 50-ci illərindən vüsət alan modal texnika tədricən daha da tez-tez və geniş şəkildə istifadə olunmağa başlayır. Harmonik müşayiətdəki akkord ardıcıllıqlarının tədricən çətinləşməsi ayrı-ayrı əsərlərdə özünü büruzə verərək, elə bir təmayülə gətirib çıxarır ki, onun nəticəsində müxtəlif modal konsepsiyalar əmələ gəlir.

İmprovizasiyaya linear yanaşma misalları 1950-ci illərdə daha çox Lester Yanqın. Mayls Deyvisin, Con Koltreynin, Sonni Rollinsin, C.Xendinin və Xoras Silverin yaradıcılığında xüsusi yer alır.

İmprovizənin yeni tərzdə anlamının ilk əlamətləri olaraq bir tərəfdən müəyyən üçsəslilərin harmonik məzmununun ifadəsi umun istifadə edilən, digər tərəfdən bütöv akkord sistemlərinin ifadəsinə olan meyl çıxış edir. Bu sonuncu üsulda həmin akkordlar müəyyən pillə ardıcıllıqları ilə təqdim edilmiş ümumi başlanğıca gəlib çıxır.

Modal texnikanın caz musiqisi və ifaçılıq təcrübəsində nəzəri dərk edilməsi, eləcə də təcrübi tətbiqi ilə müəyyən dövrlərdə məşğul olmuş ifaçı-nəzəriyyəçilər caz musiqisinin tədqiqi prosesində mühüm rol oynamışlar. Onlardan biri də Amerika bəstəçisi, pianoçu və bəndlider Corc Rassell olmuşdur. Onun 1953-cü ildə işlədiyi "İmprovizə üçün tonal təşkilin lidik xromatik konsepsiyası" adlı vəsaiti [6, 7] modal caz texnikası üzrə tətbiq olunan üsullardan biri idi. C.Rasselin "Lidik konsepsiyası" – improvizasiya və kompozisiyanın melodik-harmonik sistemi olub, bir tərəfdən modal musiqinin özünün inkişafı əsasında modal texnikanın nəzəri əsaslandırılması üzrə, dəyərli nəzəri işdir, caz melodikası ilə harmoniyasının inkişafında L.Yanqın zamanından etibarən toplanmış qanunauyğunluqların yekunudur. Digər tərəfdən isə, bu, caz ifaçılığı üzrə professional məşğələlər üçün praktiki vəsaitdir. Bu, lidik ladın 9 xromatik növündən ibarət olan və əsasən blyuz improvizəsi praktikasında istifadə üçün olan nəzəri modal sistemdir. Həmin səssıralarının ümumi cəhəti artırılmış kvarta və yaxud "lidik kvarta" intervalıdır.

Üslub etibarilə bibop dövründə yetişən Rassell əsk 5 intervalı ilə stimulə edilmiş məntiqi melodik model formullaşdırır. Bu da lidik səssırasından irəli çıxıb akkordları ondan törənən səssıraları ilə əlaqələndirmək və bunu daha çox xromatizm çərçivəsində etmək imkanını yaradırdı. Bu yolla C.Rassell ideya etibarı ilə modal caz texnikasının yaranmasına zəmin yaratmış və 1950-cilərin sonunda modal üsullu ifaçılığın (*modal playing*) əsasını qoymuşdur. Onun bu lidik konsepsiyası caz ifaçılığından törənmiş və caz təcrübəsi üçün yaradılmış ilk lad-harmonik improvizə təlimi idi. Rasselin lidik konsepsiyasının məqsədi – improvizasiyanın melodik materialının xromatik qamma pillələrinin sərbəstləşməsinə doğru istiqamətdə genişləndirilməsi idi.

Dəyişkən interval strukturlardan ibarət modal texnikasının istifadəsi, xüsusən də söhbət səssıralarından gedirsə, musiqi dilinə yeni ifadə imkanları gətirir. Bundan əlavə, modal sistemlər standart melodik-harmonik üsulların yeniləşdirilmə üsulu olur. Bununla yanaşı, onlar yeni tərzdə qavranılan funksional əlaqələr daxil edərək, möhkəm tonal əsas yaradır.

Mayls Deyvisin keçmiş tərəf müqabili olan Con Koltreyn və Makoy Tayner də modal texnika əsasında maraqlı linear və harmonik tapıntılara nail olur. C.Koltreynin "*My Favourite Things*" (1960), "*Ole Coltrane*" (1961), "*Africa Brass*", "*Expression*" (1967), "*A Love Supreme*" (1964) albomları, xüsusən də bu sıradan sonuncusu onun maraqlı bədii nailiyyətlərini aşkarlayır.

Koltreynin 1960-cı illərdəki kvartetinin ərsəyə gətirdiyi uğurlu albomlar bu heyət – C.Koltreyn (tenor və soprano-saksofon), Makkoy Tayner (fortepiano), Cimmi Harrison (bas), Elvin Cons (zərb alətləri) tərəfindən ifa edilmişdi və həmin nailiyyətlərə hazırlıq hissələrin daha geniş və miqyaslı təşkili, ifa hissiyyatı (*feeling*) ilə başlanmışdı. Həmin dəyişikliklərə eləcə də aşağıdakıları aid etmək olar:

a) hər xanə üçün vurğunun qabardılması
b) müşayiətdə akkordaların tez-tez dəyişməsi
c) sadə rayd-ritm modelindən və "addımlayan bas" patternindən asılılıq
d) səkkiz notdan ibarət solo sekvensiyalar və onlarda gecikdirilən səslərin istifadə edilməsi

Beləliklə, bu üslublar üzrə nailiyyətləri və hər üslubun parlaq nümayəndələrini işıqlandırmaqda məqsədimiz Azərbaycanda etno-caz mədəniyyətini köklü şəkildə inkişaf etdirən iki böyük sənətkar – Rafiq Babayev və Vaqif Mustafazadənin öz etiraflarına əsasən bir örnək kimi bəhrələndikləri mənbələri daha dolğun əks etdirməkdir.

C.Rasselldən əlavə, modal caz texnikasını ilk illərdə digər iki sənətkar Con Koltreyn və Mayls Deyvis tətbiq etmiş və hər biri caz tarixində öz imzası və məktəbini yaratmış mütəfəkkir kimi daxil olmuşlar.

M.Deyvisin ən məşhur modal texnikalı kompozisiyası "So What" 1959-cu ildə onun sekstet heyəti – M.Deyvis (trumpet), Kennonbol Edderli (alt-saksofon), Con Koltreyn (tenor saksofon), Bill Evans (piano), Pol Çembers (bas) və Billi Kabm (zərb alətləri) tərəfindən yaradılıb ifa edilmişdir.

Bundan sonra bu kompozisiyanın harmonik strukturunu təkrarlayan *"İmpressions", "Flamenco Sketches", "Kind of Blue"* kompozisiyaları da modal texnikanın müxtəlif üsullarla tətbiqini özündə əks etdirir.

Modal texnikanın istifadəsinə olan təmayül həm də ekzotik musiqi mədəniyyətlərinin istifadəsindən yaranır. Buna parlaq misal olaraq, M.Deyvisin tanınmış aranjimançı Gil Evans ilə onun yaradıcılığının "ispan dövründə" birgə əməkdaşlığı nəticəsində ərsəyə gəlmiş *"Miles Ahead*" və "*The Sketches of Spain*" albomlarıdır.

Yeri gəlmişkən qeyd edək ki, müxtəlif albomları üzərində çalışarkən M.Deyvisin müxtəlif heyətlərdə topladığı gənc ifaçılar üçün bu əməkdaşlıq prosesi böyük bir məktəb olur. Həmin ifaçılardan pianoçu Bill Evans, basist Skott La Faro, zərbçi Pol Mouşn, o zaman gənc pianoçular Hörbi Hənkok, Çik Koria, Keyt Carrettin adları qeyd olunmalıdır. Eyni zamanda, bu musiqiçilərə Bill Evansın da təsiri güclü olmuşdur, belə ki, harmoniya sahəsində özü də bilici və axtarışlar aparan ifaçı olan Bill Evans öz harmonik sistemini formalaşdırmışdı.

Etno-caz cərəyanı – 1970-ci illərdən başlanan yeni dövr caz-rokun bir şaxəsi kimi eyni təmayüllərin, lakin fərqli materialın bir leksik mənbə kimi istifadə olunmasına əsaslanır. Tanınmış Amerika tədqiqatçısı Ceyms Kolliyerin bu barədə qeydlərinə üz tutaq: “*Caz hansı istiqamətdə hərəkət edir, dəqiq fərz etmək mümkün deyil. Lakin hər halda onun ən əsas təmayüllərini təxmin etməyə çalışaq. Ən əsas olaraq üç istiqamət ayrılır. Onlardan ən aşkarları caz-rok və füjn musiqisidir. Bu cərəyan rok musiqisinin metrik nəbzi ilə mürəkkəb caz harmoniyalarının, sərbəst caz elementli caz improvizasiyası ilə müasir simfonik musiqinin qovuşdurulması vasitəsilə yaranmışdır*” [4, s.349-350].

Beləliklə, etno-caz istiqamətinin yaranma faktorlarını xronoloji şəkildə izləsək, bu ardıcıllıqda əvəzləşən və faktor qismində çıxış edən müxtəlif ümummədəni yenilikləri və sənətin öz daxilində baş verən yeni təmayüllər ilə birgə yeni inkişaf mərhələlərini görə bilərik:

1) Bütöv formalaşmış ənənəvi, klassik, normativ caz dövrü və ona aid üslublara (suinq, biq-bend və diksilend cazı, ənənəvi kombo cazı) tam zidd və fərqli olaraq yeni bir materiala, təfəkkürə ehtiyacı olan yeni təfəkkür tərzi həm cazda, həm də dünya mədəniyyətində baş qaldıran əsas bədii təmayül və ehtiyaclardan biri idi. XX əsrin əvvəlində naturalizm, neoprimitivizm, folkorizm adlı cərəyan həm təsviri sənətdə, həm də musiqidə öz əksini tapmışdı. Təsviri sənətdə Pol Qogen kimi rəssamdan başlayaraq, Diyeqo Riveyra kimi, musiqidə Bela Bartok, İqor Stravinski kimi sənətkarlar bu dövrü təmsil etdirmişdi.

2) Qeyd edilən neofolklorizm cərəyanının nəticəsi və şərti olaraq yeni ifadə sistemi və yeni ifadə üsullarına ehtiyac oyanır ki, bu da modal texnikanın yaradılması ilə nəticələnir. 1930-cu illərdən başlayaraq professional bəstəkar musiqisində, 1950-ci illərdən etibarən isə caz musiqisində modal texnika üsuluna əsaslanan bir neçə sistemlər yaranır.

3) 1970-ci illərdə yeni caz-rok adı altında başlanan dövr – nəinki caz musiqisinə rok ifadə ünsürlərinin, ya da caz ilə rok sənətinin sintezini, lakin həm də yeni, aprobasiya keçməmiş yeni xammal-materialın istifadəsinə üz tutur. Etnocaz ya folk caz adlanan cərəyan da bu dövrün qollarından biri idi.

Aparılan qeydlər əsasında belə bir qənaətə gəlmək olar ki, etno-caz – özünəqədərki bütün caz mədəniyyətinin, xüsusən də müasir caz ənənələrinin ən parlaq ifadə cəhətlərinin cəmləşdirərək, rok musiqi dilini özü üçün başlıca ifadə sistemi olaraq seçmişdir.

## QEYDLƏR:

**1. Bebop** (azərb. Bi-bop) - dövrü caz tarixinə ritmika, frazirovka texnikası, melodika, forma və qismən harmoniya sahəsində bir sıra köklü dəyişikliklər gətirmişdir. 1940-cı illərdə suinq dövrünün bir sıra qabaqcıl musiqiçiləri öz axtarışlarını “kombo” adlanan kiçik heyətlər sahəsində davam etdirməyə başlayır ki, bunun nəticəsində bi-bop üslubu yaranır.

Bi-bop üslubunun pionerləri sırasında ilk növbədə alt-saksofonçu Çarli Parkerin, şeypurçu Dizzi Gillespinin, pianoçulardan Telonius Monk və Bad Pauellin, zərbçilərdən Kenni Klarkın, Maks Rouçun, gitaraçı Çarli Krisçianın, kontrabasistlərdən Körli Rassell, Oskar Pettifordun adları çəkilməlidir. Bi-bop üslubunda ifa əsas etibarilə solo improvizəyə əsas diqqəti yönəldirdi. Bi-bopun harmonik əsasını suinqin məşhur melodiyalarının akkord sxemləri təşkil edir.

**2. Cool-jazz** (*ing.* cool jazz – sərin, qəlbəyatımlı, **kuul caz**) – lirik, tələsmədən, qəlbəyatımlı, astatempli, xəyalpərvər və həzin səslənən cazdır. 1940-cı illərin sonunda Bi-bop üslubunun inkişafı kuul caz üslubunun yaranmasına gətirib çıxarır. Kuul caz musiqisi xeyli təmkinli, ciddi və lirikdir. Kuul caz musiqisi daha çox ağirqli musiqiçilər, ifaçılar arasında geniş yayılmışdır. Kuul caz üslubunda müasir harmonik dil, polifonik düzüm və politonallıq, suinq və bop üslubları ilə müqayisədə daha çox istifadə olunur. Kuul cazın görkəmli nümayəndələri: saksofonçular – Sten Gets, Li Kanits, Cerri Malliqan, Pol Desmond, pianoçulardan – Lenni Tristano, Bill Evans, Con Lyuis, Corc Şirinq, Deyv Brubek, şeypurçulardan – Mayls Deyvis, Çet Beyker, trombonçu Bobbi Brukmayr, zərbçilərdən – Şelli Men, Co Morello, kontrabasist Persi Hit, vibrafonist Milt Cekson, qruplardan "Modern Jazz Quartet" və başqalarıdır.

**3. Modern-jazz** – 1940-cı illərdən etibarən caz musiqisi tarixində yaranan yeni dövr. Üslub etibarilə bibop və kuul caz üslublarını daxil edir. Bu dövrdə kombo adlanan kiçik caz heyətlərinə, xeyli mürəkkəbləşmiş harmonik sistemə, mürəkkəb improvizasiyalara üstünlük verilir. Ritm-qrup alətlərinin də təfsiri köklü şəkildə dəyişib, tam sərbəstləşir və ansamblda nəfəslilərlə bərabər hüquq qazanan solistlərə çevrilir. Kuul caz üslubu isə bibop üslubunun dinamik, sürətli və atəşli təbiətinə zidd bir istiqamət kimi yaranır.

**4. Avantgarde-jazz** (fr.avant-garde – qabaqcıl, öndər, ing.jazz – caz) – mütərəqqi, ən yeni caz musiqisi. 1960-cı illərdə formalaşan musiqi cərəyanının şərti adı. Musiqi dilinin müasirləşdirilməsinə, ən yeni musiqi dilinin və texniki üsulların qavranılmasna, çox zaman müasir bəstəkarlıq texnikası növlərinə müraciət edilməsinə meyl göstərilən istiqamətdir. Daha çox San Ranın "Maxavişnu" orkestri, Arçi Şeppin, Sesil Teylorun, Ornett Koulmanın, Elis Koltreynin yaradıcılığı bu istiqamətə aiddir. Mahiyyətinə görə free-jazz ilə yaxındır.

**5. Ethno-jazz** (ing. ethnic – milli, etnik, Etno-caz) – caz musiqisinin janr növlərindən biridir, 1950-60-cı illərdə beynəlxalq səviyyədə inkişaf etmişdir. Etno-caz təmayülü ənənəvi caz dilinə milli, qeyri-qərbi musiqi elementlərinin, etnik musiqi dilinin əlavə edilməsidir. Etno-caz təmayülü bir sıra lokal caz cərəyanlarını – afro-kuba cazı, latın-caz, jazz-manouch (qaraçı cazı) və sairədir. Bu təmayülün nümayəndələrinə Mayls Deyvis, fleytaçı Yusef Latef, qaraçı mənşəli gitaraçı Canqo Reynhardt, Co Zavinul, elektro gitaraçı Con Maklaflin və başqaları aiddir. Görkəmli Azərbaycan caz ustaları Vaqif Mustafazadə ilə Rafiq Babayevin müasir musiqi əsərləri etno-caz təmayülünün bir təzahürü və nəticəsidir.

**6. Jazz-rock** (ing. Jazz, rock – caz və rok musiqisinin qovşağına əsaslanan musiqi) – rok və caz musiqisinin qovuşmasına, süni elektron alət tembrlərini və alətlərini daxil edən, ritmik faktoru və ritmliliyi ön plana çəkən caz cərəyanı. 1970-ci illərdə Mayls Deyvis, Co Zavinul, Con Maklaflin, Frenk Zappa kimi ifaçıların yaradıcılığında formalaşmışdır.

**7. Free-jazz** (ing. free jazz – sərbəst caz, fri-caz) – 1950-ci illərin II yarısı-1960-cı illərdə formalaşan yeni caz üslublarından biri. Fri caz musiqi materialının tonal təşkili prinsiplərindən uzaqlaşma, akkordların blyuz üzrə ardıcıllaşmasından və ənənəvi suinq ritmikasından imtina ilə səciyyələnir. Burada əsas vurğu improvizasiyanın (xüsusilə də qrup şəklində ifa edilən) sərbəstliyinə, musiqinin intellektual və hissi məzmununu tam dolğun ifadə edə biləcək vasitələrin çoxçeşidliliyinə düşür. Fri caz üslubunun baniləri pianoçu Sesil Teylor və saksofonçu Ornett Koulman hesab edilir. Üslubun adı O.Koulmanın 1960-cı ildə yazılmış “*Free Jazz: A Collective Improvisation*” albomundan mənimsənilmişdir.

**8. Big-band** (ing. big band – böyük heyət, böyük dəstə, biq-bend) – caz və ya estrada musiqisinin geniş heyətli ansambl növüdür. İlk biq-bendlər ABŞ-da 1920-ci illərdə estrada rəqs səciyyəli orkestrləri olaraq yaranmışdır. Biq-benddə əsas rolu orkestrin rəhbəri və ya bəndlideri, aranjimançısı, bəzən instrumental bölmələr daşıyır. Amerikada ən məşhur biq-bendlər Dyuk Ellinqtonun, Kaunt Beysinin, Benni Qudmenin, Qlenn Millerin, Fletçer Henderson, Pol Uaytmenin rəhbərliyi altında fəaliyyət göstərib. Sovet dönəmində Rusiyada Aleksandr Sfasman, Aleksandr Varlamov, Eddi Rozner, Anatoliy Kroll və başqalarının, Azərbaycanda isə Tofiq Quliyevin (1940-1950), Rauf Hacıyevin (1950-1960), Tofiq Əhmədovun (1960-1970) rəhbərliyi altında məşhur olmuşlar.

**9. Diksilend** (ing. Dixieland) – XX əsrin əvvəlində yaranmış ənənəvi cazın üslub istiqamətlərindən biridir. Nyu Orlean ştatının Luiziana şəhərində, 1930-1950-ci illərdə formalaşmışdır. Diksilendi bəzən “hot jazz”, yəni “çılğın, alovlu caz” adlandırırlar. 1916-cı ildə Cek Ley4nin rəhbərliyi ilə yaradılmış Original Dixieland Jazz Band məşhur idi.

**10. Swing** (ing. Swing – yellənmə, suinq) – caz musiqisinin 1930-40-cı illərdə ABŞ-da formalaşmış caz üslub istiqamətlərindən biridir. Bu üslubda əsas vurğu zəif təqtinin üzərinə və ya musiqinin zəif nəbzinə düşür. Suinq musiqisində adətən bir neçə solist olurdu və onlar həm melodiyanı, həm də aranjimanı dəyişib onlar üzərində imprivuzə edərdilər. 1935-1946- illərdə Amerikada ən məşhur suinq orkestri Benni Qudmenin idi. Daha sonra Kaunt Beysi, Arti Şou, Qlenn Miller, Vudi Herman, Keb Kallouey kimi bəndliderlərin orkestrləri suinq musiqisini təmsil etmişdir.

**11. Scat-vocal** (ing. scat-vocal – qırıq-qırıq oxuma, skət-vokal) – vokal caz ifaçılığında improvizəli ifa növlərindən biri. Bu zaman heç bir məna daşımayan ayrıca sözlərdən və ya səslərdən, hecalardan istifadə edilərək vokaliz oxunulur. Skət-vokalın məşhur ustaları – Ella Fitscerald, Betti Karter, Anita ODey, El Cerou, Bobbi Makferrin və b.

**12. Hi-hat** və yaxud **çarlston** – bir gövdədə bir biri üzərində bərkidilmiş iki sincdir ki, burda zərbə ağac çubuq və ya ayaq pedalı vasitəsilə vurulur. Adətən, hay-hət 4çərəkli ölçünün 2 və 4-cü təqtilərini (çərəklərini) vurğulayır.

**ƏDƏBİYYAT:**

1. Məmmədəliyeva T. Azərbaycan bəstəkarlarının yaradıcılığında caz harmoniyasının ünsürləri (dərs vəsaiti) – Bakı, Mütərcim, 2018, 124 s., səh.26
2. Баташев А. Советский джаз. М., Музыка, 1972, 173 с.
3. Кинус Ю. Джаз: истоки и развитие. – Ростов н/Д: Феникс, 2011. – 491 с.+ CD-диск
4. Коллиэр Дж. Становление джаза. – М., Радуга, 1984, 390 с., стр.349
5. Фархадов Р. Вагиф Мустафазаде. (монография, 1-ое изд.) – Баку, Ишыг, 1986, 85 с., стр.30, 33

**Saytoqrafiya:**

6. Джордж Рассел – Лидийская Хроматическая Концепция URL:https://anatomiamusic.com/lydianconcept/
7. Джордж Рассел – лидийская хроматическая концепция ладовой организации. том первый: искусство и наука ладового тяготения. URL:https://studfile.net /preview/5440245/

**Tarana MAMMADOVA**
PhD student of BMA named after Uzeyir Hajibeyli
Teacher of the ANC

## THE ROLE OF MODAL-JAZZ METHOD IN THE FORMATION OF ETHNO-JAZZ DIRECTION

***Abstract:*** *This article examines the process of formation of ethno-jazz music, which is one of the artistic directions that has gained great influence on the international jazz scene in modern times. A review of the main periods of formation of jazz music is carried out and the main factors leading to the ethno-jazz direction are investigated. In the process of historical formation, the main factors that formed the ethno-jazz direction – the development of improvisation, modality and modal jazz, giving a richer emphasis to rhythm-are especially emphasized. The famous jazz singer and theorist George Russell's theory called "the Lidic concept" is also mentioned. At the end of the article, the author summarizes his conclusions and presents comparative notes on the achievements of the ethno-jazz direction on the world jazz scene with similar manifestations in Azerbaijani jazz music, in particular, the work of such prominent jazz performers as Vagif Mustafazade and Rafig Babayev.*

***Keywords:*** *ethno-jazz, modal-jazz, modality, improvisation, Vagif Mustafazadeh, Rafig Babayev*

**Тарана МАМЕДОВА**
Диссертант БМА им. Узеира Гаджибейли
Преподаватель АНК

# РОЛЬ МОДАЛЬНО-ДЖАЗОВОГО МЕТОДА В СТАНОВЛЕНИИ ЭТНО-ДЖАЗОВОГО НАПРАВЛЕНИЯ

***Аннотация:*** *В настоящей статье рассматривается процесс формирования этно-джазовой музыки, одного из художественных направлений, завоевавшего в современную эпоху большое влияние на международной джазовой сцене. Проведен обзор основных периодов становления джазовой музыки, исследуются основные факторы, приведшие к этно-джазовому направлению. Особое внимание уделяется таким аспектам, как развитие импровизации, модальности и модального джаза, придание более богатого значения ритму – основным факторам, сформировавшим этно-джазовое направление в процессе его исторического становления. Также упоминается теория известного джазового исполнителя и теоретика Джорджа Рассела под названием «Лидическая концепция». В заключении автор обобщает сделанные выводы и предлагает сравнить достижения этно-джазового направления на мировой джазовой сцене с аналогичными проявлениями, происходящими в Азербайджанской джазовой музыке, в частности с творчеством таких выдающихся джазовых исполнителей, как.*

***Ключевые слова****: этно-джаз, модальный джаз, модальность, импровизация, Вагиф Мустафазаде, Рафик Бабаев*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, BMA-nın dosenti Turan Məmmədəliyeva
Ü.Hacıbəyli adına BMA-nın dosenti Aliyə Məmmədova